Əzizimiz Şəddat baba, on ildən çoxdur ki, mən sizi tanıyıram. Hər təzə nömrəni sizə çatdıranda necə sevindiyinizi, qəzetə necə hörmətlə yanaşmağınızı dəfələrlə görmüşəm. Deyirlər ki, qəzet oxunmur, kitab oxunmur. Qəzet yazmağın, kitab yazmağın bir dəyəri yoxdur, mənası yoxdur. Ancaq mən sizin simanızda sözə, mətbuata, qəzetə, kitaba hörmətli yanaşmanın ən layiqli örnəyini görmüşəm.

İllər öncə «Kredo» qəzeti redaksiyasında «Böyük portretin işığı» adlı kitabın yazılması prosesində yaxından iştirak etmişəm. Ayrıca qələmə aldığım yazılar da həmin kitabda çap olunub. Bir sözlə, mən həmin kitabda ikinci



# QƏLBİNİN GÜZGÜSÜNDƏ

## *Müdrik Şəddat babaya bir məktub*

müəllif kimi iştirak etməklə, həm də bu kitabın hazırlıq prosesi zamanı sizin yaradıcılığınızla, daha əvvəllər çap olunmuş kitablarınız, məqalələrinizlə yaxından tanış olmuşam. Dəyərli yumorlu hekayələrinizi oxuduqca çox ürəkdən gülmüşəm. Hətta bir çox obrazlarınızı kimlərəsə oxşatmışam, kimlərəsə bənzətmişəm. Bu da ondan irəli gəlir ki, siz həyatı yaxşı bilirsiniz. Yaşamınız boyu həyat təcrübənizlə yaddaşınıza yazılmış hadisə və əhvalatları təxəyyül süzgəcindən keçirmisiniz, ümumiləşdirmisiniz. Nəticədə maraqlı həyat hekayələri yaranıb. Bir sözlə, sizin hər bir yazınızda həyatın bir parçası var.

Onu da deyim ki, «Böyük portretin işığı» ikicildlik ədəbi-publisistik kitabımızda (Ə.Xələfli ilə birlikdə) sizin haqqınızda yazılmış dəyərli, bədii yaxud tədqiqat əsərlərinizdən də yetərincə bəhrələnmişik. Bu da imkan verir ki, ədəbi-ictimai mühitin 60 ildən çox bir dövr ərzində sizə olan münasibəti yaxından öyrənək.

Fatma Həsənqızının sənədli romanı, Sevda Əlibəylinin publisistik əsəri, İsa Əmənullayevin, bir çox digər müəlliflərin yazdıqları sizin poliqrafiya tarixinizdəki yerinizi göstərmək baxımından çox dəyərli mənbələrdir.

Son illər sizin yaradıcılığınızın ədəbi-publisistik istiqaməti daha parlaq şəkildə öz əsərlərinizlə təsdiqini tapdı.

«Əzəldən bağlıyam sözə» adlı beşcildlik ədəbi-publisistik düşüncələr kitabınız zənnimcə, ədəbiyyat tariximizin ən maraqlı örnəklərindən biri kimi zaman-zaman araşdırılacaq, tədqiqat obyekti olacaq. Elə həmin kitablara Azərbaycanın görkəmli alimləri, professorlar Yədulla Ağazadənin, Mahmud Allahmanlının və redaktor kimi Ə.Xələflinin yazıları ilkin tədqiqat materialları kimi çox dəyərlidir.

Buradaca birməqama da toxunmaq istəyirəm. Son illər sizin S.Rüstəmxanlının həyat və yaradıcılığı ilə bağlı tədqiqat xarakterli publisistik kitabınız xüsusi bir ilhamla yazılıb. Həm ədəbiyyatşünas tədqiqatçılar, həm də ümumiyyətlə ədəbiyyatsevərlər üçün «Sabir Rüstəmxanlı yolu» adlı kitabınız çox dəyərli vəsaitdir. Məlumdur ki, S.Rüstəmxanlı xalqımızın sevimli şairidir, böyük sənətkardır. Onun poetik əsərləri, mübariz publisistikası, nəsr əsərləri bütövlükdə Azərbaycan ədəbiyyatının ayrıca bir mərhələsidir. Siz həin kitabda S.Rüstəmxanlının publisistikasından da, yaradıcılığından da böyük həvəslə söhbət açır, maraqlı təhlillər aparmısınız.

*(Davamı 16-cı səhifədə)*

KREDO

№ 12 (1268) 09 aprel 2025-ci il

# QƏLBİNİN GÜZGÜSÜNDƏ

## *Müdrik Şəddat babaya bir məktub*

*(Əvvəli 10-cu səhifədə)*

Zənnimcə, bu əsərlərin yazılması, nəşri böyük zəhmətin və intellektin, ədəbi və həyati bilginin nəticəsidir. Burada «Kredo» qəzetinin də xidmətlərini unutmaq olmaz. Yazılarınız bu qəzetdə dərc olunduqca daha böyük həvəslə işləmiş, yaradıcılığınızı daha da zənginləşdirmisiniz. Bu günlərdə sizin «Yazılan qalar» adı ilə yeni bir kitabınız da çap olundu. Həmin kitaba uzun illər ərzində yazdığınız və ayrı-ayrı qəzet və jurnallarda dərc olunmuş məqalələriniz toplanıb. Əlbəttə, bu kitabda elmi məqalələriniz də yer alıb. Axı poliqrafiyamızın inkişaf tarixində özünüzə xas xidmətləriniz var. Mən deyərdim ki, Azərbaycanda poliqrafiya elminin nəzəri əsaslarını elə ilk dəfə siz yaratmısınız. Doğrudur, həmin kitğabda haqqında yazılmış qeydlər də az deyil. Yəni bu kitabı oxuyan, vərəqləyən hər kəs Şəddat Cəfərov obrazını bütün dolğunluğu ilə təsəvvür edə bilər.




Kitabı siz özünüz mənə bağışlamısınız. Gətirib vərəqlədim. Birinci olaraq həmin kitabdakı aftoqrafları oxudum. Onlarca görkəmli şəxsiyyətlərin öz dəst-xətləri ilə yazılmış müəllif yazıları sizə dost olan hər kəsin qəlbində qürur hissi doğurur.

S.Rüstəmxanlı, Zəlimxan Yaqub, Aqşin Babayev, Yusif Kərimov, Ə.R.Xələfli, N.Mikayılzadə, Y.Talıbov və P.Axundov və sair onlaca görkəmli şəxsiyyətlərin könül duyğularını ifadə edən avtoqrafların hər biri dərin təəssürat oyadır. Sözə, sənətə verilən dəyərin əks-sədası kimi yadda qalır.

S.Rüstəmxanlı demiş, avtoqrafların kitabda rəngli, nəfis şəkildə çapı əslində kitabçılıq işimizdə bir inqilabi hadisədir. Çox istəyərdim ki, onlarca dəyərli avtoqraflardan maraqlı örnəkləri elə öz müəlliflərin adı ilə burada təqdim edim. Ancaq düşündüm ki, mövzunu mövzuya qatmayım. Avtoqraflar müəllifləri və bu yazıların məzmunu ilə bağlı ayrıca bir yazını qələmə almaq çox yaxşı olar. Sözün, sənətin dəyəri ayrı-ayrı xalqın görkəmli sənətkarlarının mülahizələrində daha aydın üzə çıxır. Həmin şəxslərin düşüncələrini ifadə edən aftoqraflar oxucuya sizin mükəmməl obrazınızı da təqdim edir. Elə ona görə də mən bu qeydlərimlə avtoqraflarla bağlı qənaətlərimin tədqiqatçıların da diqqətini cəlb edəcəyinə inanıram.

Sizin publisistika yaradıcılığınız çoxşaxəlidir. Kitab ticarətinin vəziyyəti də sizi maraqlandırır, mətbəə işinin problemləri də, jurnalistikamızın intellekt səviyyəsi də□ və s. kimi məsələlər sizin əsaslandırılmış məsələniz də çox uğurlu şəkildə öz əksini tapır. Özü də diqqət etmişəm. Siz hər hansı bir problemi qabarıq şəkildə təhlil etməklə bərabər, həm də o problemin həlli yollarını da çox ustalıqla göstərə bilirsiniz.

Əziz Şəddat baba, burada mən bir məsələni də qeyd etmək istəyirəm; sizin gənclərə diqqətiniz, qayğınız ayrıca qeyd olunmalıdır. Mən öz həyatımdan görmüşəm. Ağır və şərəfli hərbi xidmət illərimdə də siz məni unutmadınız. Hətta məzuniyyətə gələndə məni sifarişlə yanınıa çağırdınız. Yardımınızı, köməyinizi əsirgəmədiniz. Toyumda da sizin qayğılı münasibətiniz mənim gələcəyə inamımı daha da artırdı. Sizin kimi insanların yaşadığı cəmiyyətdə gənclərin həyatı daha maraqlı və daha dəyərli olar. Mənalı həyat sözlərini tez-tez işlədirlər. Elə sizin həyatınız özü çox maraqlıdır. Təkcə yaradıcılığınız yox, həyatınız, insanlara münasibətiniz həyatınızın daha mənalı olduğuna sübutdur.

Əzizim Şəddat baba, mən sonuncu dəfə sizin Azərbaycan Tarixi Muzeyindəki tədbirinizdə iştirak edə bilmədim. İş yerindən ayrılmaq mümkün olmadı. Amma sizin haqqınızda fikir və düşüncələrimi yazıya almağı bir an da olsun unutmadım.

Mənim «Kredo» qəzetindəki həyatım maraqlı insanlarla tanışlıq baxımından çox zəngindir. Mən görkəmli insanlarla hər dəfə tanış olduqca qürur hissi keçirirəm. Sizin haqqınızda düşüncələrim bir qədər fərqlidir, mənə çox doğmasınız. Sizə «Şəddat baba» deyə müraciət edirəm. Bu, təkcə mənim sizə hörmətim deyil, sizin də mənə doğmalığınızı ifadə edir.

Mənalı həyat hər vaxt dəyərlidir. Hər bir mənalı həyat gələcək nəsillər üçün dərs vəsaitidir, örnəkdir.

Mənim nəzərimdə siz bütün həyatınız və yaradıcılığınızla möhtəşəm bir kitabsınız. Gələcək nəsillər bu kitabı öyrənməyə can atacaqlar. Sizə bundan sonra da uğurlu, mənalı yaradıcılıq və həyat arzulayıram.



*Ceyhun ZALLI*